

# Əlizadə NURİ-60

Hörmətli Əlizadə Nuri!

Sizi, tanınmış şairi 60 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1962-ci il dekabr ayının 28-də Cəlilabad rayonunun Adnam kəndində anadan olubsunuz. Orta məktəbi illərindən bədii yaradıcılığa başlamısınız. "Pəncərəmdə ağlayan yağış" kitabınız 1993-cü ildə çap olunub. Daha sonra "Tanrı gəl tanış olaq", "Ulduzların göz yaşı", "Tənha şamın kölgəsi", "Bir eşqin xatirə muzeyi", "Şeirlə dolu səhər", "Su notu" və başqa kitablarınız işıq üzü görüb.

Siz 1988-ci ildə Pedaqoji Universitetin filologiya, 2001-ci ildə Bakı Dövlət Universitetinin Hüquq fakültəsini, 2011-ci ildə Azərbaycan Universitetinin magistraturasını bitiribsiniz. Şeirləriniz rus, özbək, serb, ingilis, türk və s. dillərə tərcümə olunub. "Dəfnə yarpağı", "H.Cavid", "M.Araz" mükafatları laureatı, Azərbaycan Yazıçılar Birliyi təftiş komissiyasının üzvüsünüz. Türkiyənin paytaxtı Ankara şəhərində həyat və yaradıcılığı haqqında İlkin Qulusoy və Həbibə Ayın yazdığı "Qadına məktub və ya Əlizadə Nurinin şeir dünyasına yolçuluq" kitabı çap olunub.

Hörmətli Əlizadə Nuri!

Sizi bir daha 60 illik yubileyiniz münasibətilə təbrik edir, sizə uzun ömür, yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**

**Ədəbiyyat qəzeti.- 2022- ci il.- 24 dekabr.- S. 8**